# Futbol üzrə Azərbaycan millisi "bürünclə" mükafatlandırılıb

23 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Konyada təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında üçüncü olub. Konyadakı Cümhuriyyet stadionunda keçirilən qarşılaşmada seçməmiz Əlcəzair yığması ilə qarşılaşıb və matçda hesab açılmayıb. Qalibi müəyyənləşdirmək üçün penaltilər seriyasına ehtiyac duyulub. 11 metrlik zərbələri daha dəqiq yerinə yetirən Azərbaycan millisi qələbə qazanıb - 4:3 və bürünc medallara layiq görülüb.




"Bilirsiniz ki, klublarımız həm Çempionlar Liqası, həm də Konfrans Liqasında oynadığı üçün buraya istədiyimiz heyəti gətirə bilmədik. Üstəlik, Premyer Liqa başlayırdı. Ona görə daha gənc heyətlə gəldik". Bunu 21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Samir Əliyev V İslam Həmrəyliyi Oyunlarında Əlcəzair millisinə penaltilər seriyasında qalib gələrək, bürünc medal qazandıqları oyundan sonra jurnalistlərə açıqlamasında deyib.

43 yaşlı mütəxəssis əvvəlcə qrupdan çıxacaqlarını gözləmədiklərini bildirib: "Amma uşaqlar əllərindən gələni etdilər. Yarımfinala adladıq. Artıq iştah yarandı ki, finalda oynayaq. Təəssüf ki, alınmadı. 3-cü yer uğrunda gərgin mübarizə getdi. Penaltilər seriyasında qələbə qazanıb, 3-cü yeri tutduq".

Əliyevin sözlərinə görə, oyunun gedişatı əsas vaxtın qolsuz başa çatacağını göstərirdi: "Sona 2-3 dəqiqə qalmış 11 metrlik cərimə zərbələrini kimlərin vuracağını müəyyənləşdirirdik".

Baş məşqçi "Qarabağ"ın yarımmüdafiəçisi İsmayıl İbrahimlinin qarşılaşmada meydana çıxmamasının səbəbini açıqlayıb: "Təəssüf ki, matça 2-3 saat qalmış özünü narahat hiss etdi. Bu səbəbdən riskə getmədik. Onun əvəzinə meydana çıxan futbolçu əlindən gələni etdi".

O, İslamiadanın elə də nüfuzlu yarış olmaması ilə bağlı fikirlərlə razılaşmadığını söyləyib: "Ola bilər, digər idman növlərində belə deyil. Amma futbolda hamısı güclü rəqiblər idi. Türkiyə, Səudiyyə Ərəbistanı, Əlcəzair buraya güclü heyətlə gəlmişdi. Bizdəki oyunçuların əksəriyyəti isə növbəti seçmə mərhələdə U-21-i təmsil edəcək. İslamiada bizim üçün böyük təcrübə oldu. 4 oyunun gələcəkdə nəticə qazanmaq baxımından yığmaya xeyiri dəyəcək".

Bürünc medallar uğrunda oyunu Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov, veteran futbolçu İsgəndər Cavadov və Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov da izləyiblər.

Son məlumata görə, AFFA prezidenti Rövnəq Abdullayev Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanan 23 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının üzvlərini təbrik edib.

Milli assosiasiyanın rəsmi saytı xəbər verir ki, R.Abdullayev telefonla zəng edərək öz təbriklərini kollektivə çatdırıb.

Final oyununda Səudiyyə Ərəbistanı millisinə 1:0 hesabı ilə qalib gələn Türkiyə yığması qızıl medallara layiq görülüb.

*Hazırladı: Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.-17 avqust.- S.7.